# Cənnət xanımın "III Riçard"ı



Səbinə Məmmədova - Ledi Şour
Elşən Çarhanlı - Kral IV Eduard
Natiq Fərzəliyev - Paj

Tomas Morun «III Riçardın tarixi» (1513) əsərinə əsaslanaraq 80 il sonra öz fantaziyasını, düşüncələrini əlavə etməklə, gerçəkliyin poetik dərkini yaradan Şekspirin İntibah dövrünün zirvəsində, yaradıcılığının ilkin mərhələsində ərsəyə gətirdiyi «III Riçard» faciəsi humanist dəyərləri məhv edən avtoritar rejimin timsalında, tarixi reallığın bədii yozumunu cinayət və cəza süjetində əks etdirir, xeyirin şər üzərində qələbəsi kimi əbədi mövzunu üzə çıxarır.

Yaxın tarixdə ərsəyə gələn səhnə və ekran variantlarını nəzərdən keçirməklə real tarixi, ədəbi mənbədə bədii emal prosesini keçən, səhnə-ekran həllini tapan «III Riçard»ın kəskin fərqli gerçəkliyinin mövcudluğunu anlamaq mümkündür.

Mixail Ulyanovun baş rolu oynadığı tamaşanı Retklifin «Yaşasın qalib kral!» kəlmələri bitirir... (1976)

Haqqını tələb etiyinə görə dəfələrlə əlini öpdürməklə, özünə yaxınlaşdırıb başını, sifətini ayaqlarının arasında sıxmaqla III Riçardın təhqir etdiyi Hersoq Bekingemin (Aleksandr Filippenko) intihardan vaz keçib xəncərini döşəməyə sancaraq qisasa and içməsi tamaşanın düyününün açılışında həlledici məqama çevrilir. Finalda ona sığınan III Riçardı xəncərlə öldürən köməkçisi Retklifin «Yaşasın qalib kral!» kəlmələri mənəviyyatsız mühitə xas şəxsi sədaqət prinsipinin keçiciliyini təsdiqləyir...

Adını daşıdığı məşhur rəssam atasından təsvir həllini əxz edən Robert Sturuanın quruluşunda (1979) ifasında dəlisov plastikasının dinamikası, sərsəmləyərək arabir ağılardan nəğməyə keçməsi ilə yadda qalan, gümüş düyməli, boz hərbi şinel ilə Napoleonu, Stalini, meşin əlcəkləri, uzun qara plaşı ilə Mussolinini, Hitleri ötəri xatırladan III Riçardı (Ramaz Çxikvadze) rejissoru və aktyoru Şekspirin vətənində belə tanıtdı.

Öldürtdüyü Uels şahzadəsi Eduardın cənazəsini gətirənlərin gözü qarşısında üzərinə örpək salmaqla yatağa çevirdiyi tabut və xüsusən, guya ərinin hakimiyyətə görə deyil, arvadının gözəlliyinə görə öldürülməsini ram edilən Annaya sübuta yetirərək, alçaq niyyətini həyata keçirən III Riçardın çatıb aparılan tabutun altına girməsi, tac uğrunda qanlı mübarizənin səhnə həllinin simvolik obrazına çevrilir. Bu tamaşanın əsas uğuru problemin rüşeymindəki tacın davamlı olaraq diqqət mərkəzində saxlanması idi.

Şekspirin «Hamlet»i ilə dünya şöhrəti qazanan Lorens Olivyenin Kolli Sibberlə yazdığı ssenari əsasında baş rolu oynamaqla quruluş verdiyi, iki Oskar qazanan «III Riçard» filmi (1955) pyesə maksimum yaxındır. Lorens Olivyenin yüksək sənətkarlığı hesabına qozbelliyi, şikəstliyi daim gizlədilməklə əməllərinə subyektiv bəraət qazandırılan III Riçardın müvəqqəti də olsa, ölkənin siyasi mənzərəsini eybəcərləşdirməsi uğurla təqdim olunur.

Lorens Olivyenin, əldə etdiyi tacını əsərdə olduğu kimi döyüş meydanından qaçmaq üçün deyil, hakimiyyətini qorumaq naminə ata dəyişmək istəyən III Riçardı sona qədər mübarizdir. Əslində kino ilə teatrın sintezindən yaranmaqla qanunsuz hakimiyyətə qarşı yönələn bu filmin mərkəzi fiquru finalda sahibsiz qalan, kol dibindən tapılmaqla qanuni kralın başında yer tutacaq tacdır.

İngilis Riçard Lonkreynin Yen Makkellenlə yazdığı ssenari əsasında çəkdiyi «III Riçard» filmi (1995) isə faciədəki hadisələrin köçürüldüyü 1930-cu ildə İngiltərədə hakimiyyətdən uzaqlaşan kral VIII Eduardın Hitleri dəstəkləməsi ilə Britaniya monarxizmini təhlükəyə sövq etməsinə və bundan 40 il sonra ölkədə genişlənən millətçiliyə qarşıdır. III Riçardın Hitler qiyafəsində təqdim olunduğu filmdə hakimiyyət iddialı Riçmondla (Henrix VII) on beş yaşlı şahzadə Yelizavetanın sevgisi fonunda diktaturanın ləğvi, ədalətli monarxiyanın qalibiyyəti önə çəkilir.

Hakimiyyətinə qanunu status vermək naminə III Riçardın dini tələblərin əksinə evlənmək istədiyi, qardaşı IV Eduardın azyaşlı qızı Yelizaveta çirkabdan xilas edilən İngiltərənin simvoluna çevrilir.



Vahid Əliyev -
Borçer-kardinal

Strukturdakı personajlardan fərqli olaraq indi tamaşa zalındakılar keçmişlə gələcəyin deyil, yalnız indiki zamanın reallığını qəbul edən postmodern təfəkkürlülərdən də ibarətdir. Satirikon teatrında, rejissor Yuri Butusovun quruluşunda da (2004) ziddiyyətin digər tərəfinin - öldürülən uşaqların ruhlarının, rəqiblərinin üzərinə badələrdən qırmızı şərab atdırmaqla öldürən III Riçardı (Konstantin Raykin), rəssam Aleksandr Şişkinin karton və kağızdan yaratmaqla şərtiliyi önə çəkdiyi uğurlu dekorda balışla döyə-döyə məhv etmələri şərin cəzalandırılmasının postmodern yozumunu qabardır.

Dramaturqun 450 illik yubileyi ərəfəsində dünya teatrlarında davamlı olaraq tamaşaya qoyulan «III Riçard»



Təhminə Məmmədova - Marqarita

Azərbaycanda, Gəncə Dövlət Dram Teatrında Hilal Həsənovun şair Əliağa Kürçaylının tərcüməsində quruluş verdiyi «III Riçard» faciəsindən (1984) iyirmi il sonra Dövlət Gənc Tamaşaçılar Teatrında Dilsuz Mustafayevlə Şövqü Hüseynovun tərcüməsində Cənnət Səlimovanın ərsəyə gətirməsini növbəti mədəniyyət uğuru saymaq olar.

Tamaşaya yeni personajlar da əlavə etməklə tamamilə başqa, balaqan yozumlu bir səhnə əsərinin yaranması əslində Tomas Morun yazdığı real, III Riçardın idarəçiliyi məzhəkə kimi aparması tarixi dəyərləndirməyə əsaslanır. Şövqü Hüseynovun III Riçardı əməllərinə subyektiv bəraəti göstərə bilsə də, üstəlik arada Nerona, Hitlerə, Stalinə, Beriyaya, Səddam Hüseynə də çevrilməklə diqqəti yayındırır. «III Riçard» faciəsində qaynatasını və ərini öldürdüyü üçün onun qanını içməyə hazır olan Annanı - doğma qardaşı IV Eduardın arvadını - özünün şərə yönələn uzaqgörənliyi, dərrakəsi hesabına ram edə bilən III Riçardın əsas silahı erkəkliyi deyil, cadugər psixologizmidir. Rusiyadan dəvət olunan baletmeyster Sergey Qrisayın bu epizod üçün qurduğu erotik çalarlı rəqs tamaşalılığı artırsa da, otuz illik müharibəyə son qoyan Riçmondla Yelizaveta arasındakı ruhi sevgi rəqsinə də ehtiyac yaradır.

Əslinə qalsa, mövzunun əbədiliyi ilə seçilən qədim yunan, yaxud İntibah dövrü personajlarının ikinci dünya müharibəsi ilə bağlı hərbi geyimlərdə təqdimatı, informasiya gerçəkliyinin arxaizmini itirdiyindən lüzumsuzdur. Həyatda 32 ildən bir az artıq yaşamış real Riçard (1452-1485) rolunda, məsələn, ağsaçlı Ramaz Çxikvadze ilə müqayisədə, nisbətən cavan Şövqü Hüseynov real prototipə daha yaxındır.

